ÖN SÖZ

Şirin dilin, şirin ləhcən
Yurdumuzun öz səsidir.
Rübabını çalanda sən
Dindi dağ da, göy çəmən də
Dedi hamı, dedim mən də
Bu Osmanın nəfəsidir
Yurdumuzun öz səsidir!..

Səməd Vurğun

Xalq şairimiz Osman Sarıvəllinin poeziyasının öz dadı-duzu, öz rəngi və ahəngi var. O.Sarıvəlli şeri kökünü ana torpağımızdan, ətrini bu torpaqda cücərən otlardan, çiçəklərdən, səsini göylərimizdə süzən quşlarımızdan, nəfəsini iqlimimizdən, şeriyyətini isə ana dilimizinbülbül cəhcəhinə bənzər ahəngindən almışdır.

Sazdan pərvazlanan Osman şeri, həmişə ana torpağın nəğməsini oxumuş, xalq ürəyinin ən incə tellərinə toxunmuş, onunla həmahəng səslənmişdir. Sadəlik və səmimilik Osman şerinin şah damarıdır. Buna görə də o, nədən yazır yazsın, necə yazır, yazsın, hansı vəzndə, hansı formada yazır yazsın, dəxli yoxdur, yazdıqlarına bizi inandırır, inandırdığına görə də həyəcanlandıra bilir.

Sarıvəllinin şerində saxta pafosa, süni deyimlərə rast gəlmək mümkün deyil. Çünki o, həmişə gördüklərini və duyduqlarını yazmış, heç nə uydurmamış, yalnız ürəyinin səsini dinləmişdir. Yaradıcılığının ilk illərində yazdığı "Atamın oğlu", "Qara yurdun tarixi", "Nümayəndə qadın", "Çobanın məktubları", "Mənim ömrüm", "Bənövşə" kimi əsərlər ya avtobioqrafikdir, yaxud da şairin şəxsi müşahidələrinin məhsuludur.

Şairin sonrakı yaradıcılığına Moskva mühitinin də təsiri çox böyük olmuşdur.

20-30-cu il şeri üçün səciyyəvi olan döyüşkənlik və mübarizliklə yanaşı, Sarıvəlli yaradıcılığında başqa şairlərimizə o qədər də xas olmayan konkretlik və predmetçilik mühüm yer tutur. Hay-küydən uzaq, konkret predmetdən çıxaraq söz demək, Osman yaradıcılığının sonrakı dövrlərində daha da qüvvətləndi və özündən sonra gələn nəsillər üçün ədəbi üsul oldu. Mənim yaşıdım olan ədəbi nəsil, sovet dövrü Azərbaycan şerinin təməl daşını qoyan S.Rüstəm, S.Vurğun, R.Rza, M.Müşfiq kimi qüdrətli sənətkarlardan siyasi

kəskinlik və mübarizlik, O.Sarıvəlli və Ə.Cəmil kimi incə söz sərraflarından isə sənətdə konkretliyi və detala varmağı öyrəndilər. Onun gənc ədəbi qüvvələrə qayğı sahəsində xidmətini S.Rüstəm, S.Vurğun, M.İbrahimov. M.Hüseyn və R. Rza dəfələrlə qeyd etmişlər.

1937-ci ildə yazdığı "Bənövşə" şerində şair əvvəllər yaşadığı əzablı, iztirablı günləri ümumi sözlərlə deyil, konkret bədii detallarla təsvir edir və bizi öz təsvirinə inandırır:

Dumanlı səhərlər, çənli axşamlar,
Keçəli çadırlar, yeraltı damlar
Olduca məskənim, olduqca yerim,
Yamaqlı şalvarım, yamaqlı çuxam,
Vüqarlı başımı saldı aşağı,
Çıxdı gözlərimə qəlbimin dağı.
Ələmdən, kədərdən qaça bilmədim,
Ciyərim həsrətlə alışdı, yandı.
Könlümü kimsəyə açа bilmədim,
Cırıq paltarımdan eşqim utandı.

Detallara fikir verin: "keçəli çadırlar", "yeraltı damlar", "yamaqlı şalvar", "yamaqlı çuxa", "ürək dağının gözə çıxması", məhəbbətinin kimsəyə açа bilməməsinin səbəbkarı "cırıq paltarından eşqinin utanması".

Bu poetik detalları ümumi şəkildə deyilmiş yüzlərlə söz yığımı heç cür əvəz edə bilməz. Bax, budur əsl bədii söz və bu bədii sözdən doğan bədii təsir! Məhz bu cəhətinə görə biz, o zamanın gəncləri Osman müəllimi sevir və onun sənətindən öyrənirdik.

Yoxsulluğu üzündən sevgilisinə qəlbini açа bilməyən şairin bənövşəyə müraciətən dediyi aşağıdakı misralar melodiyasız nəğmədir:

Ey mənim könlümə vəfalı həmdəm,
Yarım Əsli oldu, mən də bir Kərəm.
Gecə axtarıram, gündüz gəzirəm,
Sən də sevgilimi ara, bənövşə.

Niyə dillənmədin, dilin lalдımı,
Ağlını başından sözüm aldımı?
Söylə ləkədirmi, yoxsa xaldımı,
Nədir üzündəki qara, bənövşə.

Beləliklə, şair adi çiçək olan bənövşənin ləçəyindəki qara xalı dərdinin əlaməti kimi ümumiləşdirir və bizi sözün qüdrətinə təpındırır.

O.Sarıvəlli poeziyamızda siyasi lirikanın gözəl nümunələrini yaratmışdır. Onun siyasi mövzulu şeirləri belə son dərəcə adi və sadə sözlərlə, lakin böyük ustalıqla yazılmışdır. Məsələn, onun xalq elçisi deputata müraciətlə yazdığı "Mən səni seçdim ki..." şeri demək olar ki, Azərbaycan şerində bu mövzuda yazılmış ən gözəl poeziya nümunəsidir.

İlin sonucu gününə, yeni ilin gəlişinə ədəbiyyatımızda yüzlərlə şeir həsr olunmuşdur. Lakin "Yeni il şeri" deyəndə həmişə yadımıza Sarıvəllinin "Təqvimin son varağı" şeri düşür. Çünki o, yeni ilin gəlişini ümumi, şablon sözlərlə deyil, əsl şair kimi qələmə almışdır. Şair bu mövzunu təqvimin kötüyü üstündə əsən son vərəqlə, yəni köhnə ilin sonuncu günü ilə əlaqələndirib, onu predmetləşdirir:

Ağacdan yarpaqlar endikcə bir-bir
İl də arxasından atır yükünü.
Təqvimin kötüyü üstündə əsir,
Tək qalan son vərəq – ilin son günü.

Bir sözlə, Sarıvəlli poeziyası başdan-başa işıqlı bir poeziyadır. Bu poeziya qayalardan süzülən çeşmələrin suyu kimi dupduru və yaz günəşi kimi işıqlıdır.

1941-45-ci illər müharibəsi başqa şairlərimiz kimi O.Sarıvəllinin də yaradıcılığında yeni bir səhifə açdı. Bu illərdə onun yazdığı "Qafqazdan Dona doğru", "Ukraynalı dostlarıma", "Bir damcı qan", "Ağ xalatlı qız", "Berlinin darvazası" və s. şeirləri xalqı alman faşizminə qarşı mübarizəyə səfərbər edən vətənpərvərlik nümunələridir. Şairin bu illərdə yazdığı "Bu yer onun yeridir" adlı balaca bir şeri müharibə illərində xalqın keçirdiyi ağır günləri əks etdirən gözəl bir tablodur. Bu şeirdə əri cəbhədə döyüşən cavan bir gəlinin yeni ili qarşılaması təsvir olunur. Gəlin ərinin cəbhədən dönəcəyinə inanır, ona görə də yeni il gecəsi qırmızı paltar geyinir və qonaqları bu paltarda qarşılayır. Stol arxasında hər kəs öz yerini tutur. Lakin gəlin "heç kəs burda oturmasın, bu yer onun yeridir" deyə başda bir stulu boş saxlayır. Şeir bu sözlərlə bitir:

Tamada öz nitqinin lap sonunda müxtəsər:
– Badələri qaldırın, bu andan yeni ildir.
Hamı durdu ayağa, qaldırıldı badələr,
Cəbhədəki əsgərin sağlığına içildi.

Süzüb şəkli, gəlinin tutuldu qaş-qabağı,
Gözlərinə apardı üzü güllü yaylığı.

Sonra da qonaqların qəlbi sınmasın deyə
Düşüncələr içində yaxınlaşdı süfrəyə.
Titrədi dodaqları... eşitmədik səsini
Sahibsiz piyaləyə vurdu piyaləsini.

Beləliklə, qüdrətli şair müharibə illərində ana və bacılarımızın yaşadığı iztirablı günlərin, onların sədaqət və səbrinin lövhəsini 30 sətirlik bir şeirdə çəkmişdir. Ümumiyyətlə, Sarıvəlli şerini sözlərlə çəkilmiş lövhə adlandırmaq olar.

Müharibə illərində şair Cənubi Azərbaycanda olmuş, xalqın ağır güzəranını öz gözləri ilə görmüş, "Körpə quzu", "Şair və bağban", "Panamalı dilənçi", "Dəvə karvanı", "A dostlar" kimi şeirlərində öz doğma Vətənində qərib olan, ana dilinə həsrət qalan bacı və qardaşlarımızın halına ağrıyan bir ürəyin fəryadı səslənir:

Mələmə, a körpə, mələmə, yetər,
Ağırdır bu ahlar, bu iniltilər.
Mələmə, ay quzum, mələmə təkcə.
Canıma od düşür sən mələdikcə.

Bu misralara şeirmi, nəğməmi, ürək yanğısımı deyək? Bunlar bəstələnməmiş nəğmələrdir. Çünki ürək yanğısından doğmuş, hissdən, duyğudan yaranmışdır. Dilimizin incəlikləri, imkanları, şirinliyi və məlahəti şairin qəlbində elə qaynamış ki, bu qaynaqdan büllur çeşmələr, bəstəsiz nəğmələr süzülür.

Sözlərdən nəğmə yaratmaq şairdən böyük ustalıq tələb edir. Bu isə minillik şeir ənənəmizə, xalq ədəbiyyatına, nağıllara, dastanlara, bayatılara, bir sözlə, xalq ruhuna, xalq mənəviyyatına gözəgörünməz tellərlə bağlılığın nəticəsidir. Bütün bunlar isə sevimli sənətkarımızın "Gətir, oğlum, gətir" kimi şeir incisini yaratmaq zirvəsinə çatdırdı. Xalq ruhunun himni olan bu əsər sovet dövrü Azərbaycan şerinin şah əsərlərindəndir.

Şair şəhərdə doğulub böyüyən oğlu Babəki özünün doğulduğu kəndə göndərir. Çünki şair istəyir ki, övladı onun özü kimi kəndi, torpağı və bu torpağın adamlarını, bu adamların mənəvi dünyasını duya bilsin, sevə bilsin. Şair oğluna müraciətlə deyir:

Mən kənddə doğuldum, sənsə şəhərdə,
Sən beşikdə yatdın, mənsə yəhərdə.
Yatdım boz otlaqda, boz dovşan kimi
Gözümüz dünyaya açılan kimi,

Mən çomaq götürdüm, sən kağız-qələm,
Çomaq bir aləmdir, qələm bir aləm.

Bundan sonra şair oğluna tövsiyə edir ki, kənddə gördüklərinə biganə qalmasın, saza qulaq assın, aşıqların danışdığı nağılları, dastanları dinləsin və bilsin ki, bunlar elə-belə nağıl deyil. Xalq zəkasının meyvəsi olan bu əsərlərdə böyük mənalar və hikmətlər var.

Saz oyun deyildir düşündüyün tək,
Onda "Kərəmi" var, onda "Cəngi" var.
Hər simdə bir əsrin öz ahəngi var.
...O bəzən yüksəlir, bəzən alçalır,
Hər pərdə bir dövrün dərdini çalır.

Şair oğluna tapşırır ki, sən keçmişi bilməsən, gələcəyi bilməzsən. Xalqın mənəvi dünyasına enməsən, xalqı dərk edə bilməzsən:

En, uçan alçalar, enən ucalar,
En, yerin təkində xəzinələr var.
Demə köhnə sözün mənası nədir?
Hər söz, anlayana bir qərinədir.
Hər fikir mülkündə zərrin tac yatır,
Hər meyvə tumunda bir ağac yatır.
...Hər kiçik böcəyin adı var, quzum,
Hər meyvənin ayrı dadı var, quzum.
Ana təbiəti duyub dərindən,
Bu qoca dünyanın sirrini öyrən.
Üfüqlər al geysə şəfəqlər olvan,
Yaxşı bax, seçə bil rəngi boyadan.
Harda qırov durur, harda şeh durur,
Göyün qurşağında neçə zeh durur.
Nə zaman qar yağır, nə zaman dolu,
Nə zaman sel qopur, uçurur yolu.
Aşıqlar nə zaman aşıb-daşırlar,
Yarpaqlar nə zaman pıçıldaşırlar.

Şair övladına ana təbiətin dilini öyrədir, onu həyata hazırlayır. Bəli, təbiəti, onun sirlərini, ana torpağı, iqlimi bilmədən, bu təbiətdə, bu torpaq üstündə yaşayan adamların ruhuna, qəlbinə necə yol tapmaq olar? Osman Sarıvəlli bu gözəl şeri ilə oğlunun simasında yetişən gənc nəslə, eyni zamanda hamımıza

mənsub olduğumuz torpağı, bu torpağın üstündə yaşayan xalqı, bu xalqın tarixini, folklorunu, adət-ənənəsini, musiqisini sevməyi tapşırır. Çünki bu torpağı və bu torpağın üstündə yaşayan xalqı, onun min-minillik tarixini bilmədən, sevmədən sabah lazım gələrsə, onun uğrunda ölümə getməyə də hazır olmarıq. Beləliklə, bu şeir yalnız gəncliyə müraciət deyil, bütün xalqa, xalqın ziyalısından tutumuş adi fəhləsinə qədər hamıya, eyni zamanda, bütün insanlığa müraciətdir. Çünki:

Oğul, könlüm kimi uçmaq istəsən,
Əvvəl yaxşı bağlan bu topağa sən, --

deyir. Şerin sonunda şair oğluna şəhərə dönəndə, görün, kənddən nələri gətirməyi tapşırır:

Bir gün bu yerlərə dönüb gəlirkən,
Topla xumar gözlü bənövşələrdən,
Bir az gecikdinmi, nanə, üzərrik,
Özəkli baldırqan, çiçəkli yemlik,
Keşniş, kəklikotu, çobanəppəyi,
Lalə, xoruzgülü, qaymaq çiçəyi,
Qulançar, quzqulaq, tərə, göbələk,
Albalı, qarağat, moruq, çiyələk,
Bunlar şirin nemət, şirin diləkdir,
Sevməyən sevməsin, mənə gərəkdir.
...Qara qoç, boz qoyun, göy təpəl quzu,
Ağ ceyran dırnağı, maral buynuzu,
Qırqovul quyruğu, tovuz lələyi,
Bir aslan pəncəsi, bir şir biləyi.
...Ötürmə bunları, quzum, sən gətir,
Bilməz bu neməti hər yetən, gətir.

Çox qəribədir ki, o zaman bu əsər tənqidə məruz qaldı. Bu tənqidlər şerin fəlsəfi qayəsini və məramını qəsdən eybəcərləşdirmək məqsədini güdürdü. Buna görədir ki, böyük şairimiz S.Vurğun O.Sarıvəlliyə həsr etdiyi şerində "kosmopolit iş başında səni dandı, məni dandı" -- deyirdi.

Xalq mənəviyyatının aynası olan "Gətir, oğlum, gətir" əsəri əslində fəlsəfi lirikanın əsl nümunəsidir. Ona görə ki, şair ana torpağımızın nemətləri olan otların, çiçəklərin, gözəllik timsalı olan heyvanların və quşların adını sadalayarkən, bunların müstəqim mənasını deyil, mənəvi gözəllik mənasını nəzərdə tutur və bütün bunlardan sonra əsəri bu sözlərlə bitirir:

Ana yurdumuzun nəyi var gətir,
Məhəbbət, sədaqət, etibar gətir.

Əsərdən çıxan nəticə bu üç sözün üzərində ümumiləşir. Şair insanları ana yurdumuza məhəbbətə, xalqımıza sədaqətə, etibara çağırır.

Hörmətli şairimizin bütün yaradıcılığı ədəbin, əxlaqın və mənəvi təmizliyin üzərində qurulmuşdur. Gözəl sənət inciləri yaradan Osman müəllim özü əvvəlcə bir insan, bir şəxsiyyət kimi bu edeb-əxlaq normalarını özünə həyat qayəsi seçdiyindəndi ki, onun bütün yaradıcılığı də bu normaların tərənnümünə həsr olunmuşdur.

Bəxtiyar Vahabzadə

Məhəbbət

ƏSİRGƏMƏZDİM

İllərin, ayların əlində ömrüm
Bir yol titrəmədi, bir yol əsmədi.
Bu günə, sabaha baxdı inamla,
Eldən ümidini bir an kəsmədi.

Dünyada faydalı, dəyərli nə var,
Toplamaq istədim yeri düşəndə.
Səadəti üçün mən öz xalqımın,
Öyrənmək istədim düşmənimdən də.

Qalan illərimi bilmək istədim,
Dedim o neçə qış, o neçə yazdır?
Qaytarmaq istədim sənə borcumu,
Baxıram, bir ömür nə qədər azdır.

Tayın, bərabərin yoxdur, ey Vətən!
Neçə ölkə gəzdim, neçə el gəzdim.
Yüz ömrüm olsaydı verər büsbütün,
Səndən bir günümü əsirgəməzdim.

1975

MƏHƏBBƏT

Uzun qərinələr keçir dalbadal,
Dəyişir təbiət, dəyişir xəyal.
Dayaz bir göl olur dənizlər bəzən,
Meşələr quruyur, bitir yenidən.
Qocalır dünyanın torpağı, daşı,
Qar kimi ağarır insanın başı.
Bu cahan mülkündə, cahan bağında,
Bu qoca dünyanın gen qucağında
Bəzən matəm olur, bəzən toy-düyün,
Təqvimdən bir varaq cırılır hər gün.
Ey dost, sözlərimi unutma ki sən,
Gedir dəqiqələr ömürdən-gündən.
Könül kitabını tez ara, axtar,
Bir gör ölməyəcək sənin nəyin var?
Söylə, nə vermisən şerə, sənətə,
Nə qoyub gedirsən, bəşəriyyətə?..

Dolanır həftələr, dolanır aylar,
Uçur xanimanlar, uçur saraylar,
Dağılır taxti-tac, gedir ehtişam,
Çaylar məcrasını dəyişir tamam.
Dalğalar sahili döyür əsəbi,
Coşur insanların kini, qəzəbi.
Qapılar təpiklə qopur hasardan,
Zalım padşahlar asılır dardan.
Paslı zəncirləri biləklər açır,
Taxtı, səltənəti şah qoyur, qaçır...
Keçir qoşun kimi sənələr bir-bir,
Aləmdə nə varsa hər şey dəyişir.
Dəyişir səmtini Ay, Günəş, ulduz...
Bir şey dəyişməyir, dünyada yalnız

Sizi düşündürən o sirr, o hikmət,
O böyük həqiqət, o böyük qüvvət.
Nə malım, nə mülküm, nə dövlətimdir.
O mənim xalqıma məhəbbətimdir!..

Təbriz, dekabr, 1941

EL GÜCÜ – SEL GÜCÜ

Baxıram sahildən daşlı döşlərə
Yayılıb əlləri belli adamlar.
El gücü – sel gücü demiş, atalar,
Bu müdrik məsəldə böyük mənа var...

Ötən bir anı da xeyli zamandır
Dolanan hər ayın, keçən hər ilin.
Kiçik bir damlası olmaq da xoşdur
Bu güclü axının, bu güclü selin.

Körpə yaşəmənin eşdim dibini,
Vurdum alağını, otunu biçdim.
Əkdiyim küknarı suladım bu gün,
Elə bil yanırdım, özüm su içdim.

Pöhrələr, şitillər indi körpədir,
Fidanlar on qarış deyil hələlik.
Sabah boy atacaq, görəcəksiniz
Xəzər sahilində yaşıl meşəlik...

Yayları buraya qızlar, oğlanlar
Hər yandan sel kimi töküləcəkdir.
Qumluqda qaralıb gümrah cavanlar,
Sərin kölgəlikdə dinciləcəkdir.

Sevib oxşayacaq gənclik eşqini,
Sahili bürüyən güllər-çiçəklər.
Qumsalı gülüstan edən kəsləri,
Nəsillər hörmətlə yad edəcəklər.

1976

KİÇİK BİR ARZU

Keçən günlərimi unutmamışam,
Gəlir uşaqlığım yadıma bəzən;
Çıraqlar sönəndə, qaralanda şam,
Yorğun dovşan kimi boz otluqda mən
Aydınlıq gecələr şirin yatdığım,
Ölsəm də yadımdan çıxmayacaqdır.
Kürün kənarında, qarmaq atdığım
Xəyal məskənimdən, demə, uzaqdır,
Çinarlar könlümü aldı əzəldən,
Görmək istəyirəm o yerləri mən!

Yadımdan çıxarmı dumanlı dağlar –
Mənim o dağlarda min oylağım var.
Ulduzlar gözünü birdən yumanda
Yalqız dolaşmışam çəndə, dumanda...
Sıldırım qayalar, dərin quzeylər,
Döşündə qar yatan sərin quzeylər.
Əlvan çəmənliklər, yaşıl otlaqlar,
Sevdiyim Ağçaylar, Dəlibulaqlar[1].
Könlümü kəməndə saldı əzəldən,
Görmək istəyirəm o yerləri mən.
Dağların başına qaranlıq çökür,
Şimşəklər parlayır, buludlar tökür...
Dumanlar alçalır yollara sarı,
Qaranlıqda qərib yolçular azır,
Döyür ildırımlar qoca dağları,
Şimşəklər qızıldan yazılar yazır...
Dolu səpildikcə yerə qar kimi...
Otlar xışıldayır qumaşlar kimi...

Məni o yerlərdə bəslədi anam,
Odur xəyalımda hər səhər, axşam.

[1] Bulaq adlarıdır

Keçir yurdumuzun sərin yaylağı,
Mənə könül verdi Ələyəz dağı.
Gözüm zirvəsində qaldı əzəldən,
Görmək istəyirəm o yerləri mən...

1938

BU YERLƏR

Yaxın sirdaş kimi, əziz dost kimi,
Qolunu boynuma saldı bu yerlər.
Mənim bu nisgilim vardı əzəldən,
Oxşayıb könlümü aldı bu yerlər!

Göylərə uçsam da bağlıyam yenə
Əziz doğma yurda, doğma Vətənə...
Min eldə min nemət dadmışam, mənə –
Şəkərdi bu yerlər, baldı bu yerlər!

Aşıq eldən alır öz nəfəsini
Gəldim eşitməyə elin səsini;
Könlümün dil açan kəmənçəsini,
Zərif əllərilə çaldı bu yerlər!

Obanın, oymağın sordum yaşını,
Dağlar təzim edib əydi başını.
O dəm alim kimi çatıb qaşını,
Dərin xəyalata daldı bu yerlər!

Vidadi xanlardan görmədi kərəm,
Vaqifə dağ çəkdi burda min sənəm.
Öldü qoç Koroğlu, öldü xan Kərəm
Sinəsi kədərli qaldı bu yerlər!

Kim minir Qazağın dilboz atını,
Götürür toyların şal xalatını...
Şeirin, sənətin mükafatını,
Hər zaman hər yanda aldı bu yerlər.

Qazax, 5 yanvar, 1938

MƏN QAZAĞA GƏLMİŞƏM

Vaxt olub ki, bu yerləri dolanıb
Bir ov üçün min sorağa gəlmişəm.
Düşüb arxasından, başı alovlu
Boz arandan, göy yaylağa gəlmişəm.

Nə çəkmədim hələ cavan yaşımda?
Oda düşdüm min bir sevda başımda,
Xatirəm var torpağında, daşında,
Mənə tanış bir oylağa gəlmişəm.

Yer üzündə min bir cənnət olsa da,
Bağ-bağçası mələklərlə dolsa da,
Tayı yoxdur bu yerlərin dünyada –
Cənnət kimi bir torpağa gəlmişəm.

Günəş doğdu, parçalandı çən, duman,
Güldü bizim üzümüzə dağ, aran...
Əziz gündür · hər yan çalan, çağıran,
Şən büsata, xoş növrağa gəlmişəm.

İllər keçir, ömür yarı, gün yarı;
Necə atım etibarı, ilqarı?
Bayram günü sizin kimi dostları
Görmək üçün mən Qazağa gəlmişəm.

Qazax, 1948

O MƏNİM HƏR ZAMAN ÜRƏYİMDƏDİR

Sarıvolli kəndi ilk yuvam olmuş,
Gözümü dünyaya orda açmışam.
Yenicə çırpınan qanadlarımla,
Budaqdan-budağa gəzib, uçmuşam.

Sonra qanadlarım bərkidi bir az,
Dumanlı dağların belindən aşdım.
Dünyanın sirrini öyrənim deyə,
İqlimdən-iqlimə gəzdim, dolaşdım...

Kür suyu şirindir, bunu bir də mən
Özgə bulaqlardan içəndə bildim...
Gəzdiyim zaman da uzaq elləri,
Özümü kəndimin içində bildim.

Hanı uşaqlığım, hanı gəncliyim?
Niyə görünməyir, indi hardadır?
Onları kəndimdə qoyub gəlmişəm –
Axtarın, yəqin ki, oralardadır...

Babakər dağının ətəklərində
Mən biçin də biçdim, əkin də əkdim,
Harada oldumsa unutmadım, yox,
Adını adımla yanaşı çəkdim.

Durub təmtəraqlı ad axtarmadım,
Onun əziz adı öz adım oldu.
Azadlıq – deyəndə xalqın qüdrəti
Mənim qolum oldu, qanadım oldu.

Mən az görməmişəm payızda, yazda
Elin nişanını, elin toyunu,
Tutsun gözlərimi əgər unutsam
Onun çörəyini, onun suyunu.

Kəndimiz bilsin ki, şair oğlunun
Nəğmələr gülşəni çiçək-çiçəkdir!
Adını dünyaya tanıtmayınca
Köçüb bu dünyadan getməyəcəkdir.

1966

BİNAM ÖZ BABAMIN YURDUNA DÜŞDÜ

I

Əbədi yanmayır yanan hər ocaq –
Bir zaman parlayan, bir zaman sönür.
Qədim kaşanələr, böyük saraylar
Yıxılır, dağılır, torpağa dönür...

Biri: "Möhkəm yapış – deyir – bu gündən!.."
Digəri söyləir: "Bu dünya puçdur".
Uçdu yadıgar Qurban kişinin,
Elə bil başıma dünyalar uçdu...

Ah-fəğan etməyin mənası yoxdur.
Gördün ki, bir evi "uçurur fələk".
Bina bünövrədən çökürsə əgər
Onu sona qədər uçurmaq gərək!

Uçurmaq çətindir, ancaq nə etmək?
Özəldən belədir "hökmü həyatın..."
Düşdükcə boz daşlar qalın divardan,
Uçdu varaqları min xatiratın...

Divar söküldükcə qopdu, töküldü
Köhnə bir kitabın səhifələri –
Gözümün önündən keçdi ömrümün
Qayğılı, qayğısız dəqiqələri...

II

Qazdıqca qazırıq, dərin kalafa
Yamanca qorxudur məni doğrusu.
Bu, köhnə dam yeri, samanlıq yeri,
O da – samanlıqda arpa quyusu...

– Baban varlı olub, şair, görünür, –
Cavanlar söz atıb gülüşür hərdən –
Quyu həm dərindir, həm də çox enli,
Daş-qaş əskik olmaz heç belə yerdən.

– Ehtiyyatla eşin – deyirəm – bəlkə,
Qızıl gizlədibdir vaxtilə qoca!
– Yox, yox, qızıl nədir, rəhmətlik baban,
Quyuda arpa da qoymayıb azca...

– Yer dəmyə, xış qırıq, öküzlər arıq,
Qoca yaz sürəndə, payız sürməyib.
Uşaq çox, məhsul az, kim bilir bəlkə,
O quyu ömründə arpa görməyib...

– Xəzinələr qoyub yerin altında
Siz Topal[1] Əhmədi elə bilməyin...
Deyirəm – Bu daxma yerinə, oğlum,
İndi siz qürurla baxıb gülməyin!

Bizim babaların məskəni olmuş
Yağışda, yağmurda, boranda, qarda.
Neçə-neçə uzun ömür-gün keçib
Kalafası qalmış bu daxmalarda!..

Böyük bir şəhərdə ağ otaqları
İndi özüm üçün etsəm də məskən,
Haman bu torpaqda, haman bu yerdə
Bu qara daxmada doğulmuşam mən!..

Atamın qaşları çatılmış o gün.
Titrəmiş dodağı, gözünün altı.
Deyib ki, – işə bax, biri də oldu,
Beşin beş dərdi var, altının altı.

Deyirlər ki, nənəm asıb nənnimi
Çardağın his basmış direklərindən
Mənə bir çit köynək tikə bilməyib
Köksünü ötürmüş anam dərdindən...

Dilim söz tutsaydı deyərdim o vaxt
"Yaşamaq çətindir, nahaq doğuldum!
Abdulla kişinin ağırdır yükü,
Bir yük də yenidən ona mən oldum..."

[1] Şairin uzaq babalarından birinin adıdır.

Uzun karvanını çəkib fəsillər
Gah qarlı, gah güllü dağdan aşdılar –
Neçə gün, neçə ay öpüb üzümdən,
Uşaqlıq çağımdan uzaqlaşdılar.

Sonra tay-tuşumdan geri qalmadım
Nə bir əyləncədə, nə bir oyunda.
Əlim çomaq tutdu...Köməyim dəydi,
Muzdur qardaşlara malda, qoyunda...

Dövlətli qonşunun gümrah, qayğısız
Ömrü dağlı keçdi, aranlı keçdi.
Mənimsə uşaqlıq günlərim ağır,
Cavanlıq illərim boranlı keçdi...

Dövlətim tək bircə kasıblıq oldu.
Deyirdim, "İlahi qismətim bumu?"
Gözüm bir qapıda qaldı, heyif ki,
Heç görə bilmədim sərvi boylumu.

Özünü yandırır yoxsulun odu –
Kim çatır hayına – yandım, deməklə?
Var-dövlət ölkələr fəth edən zaman
Gəl ürək fəth elə tək-bir ürəklə!..

Dayanıb üstündə bu samanlığın,
Heykələ döndüyüm yadıma düşdü.
Gecələr yağımda yanıb sübhədək,
Şam kimi söndüyüm yadıma düşdü...

Nə dağlar çəkibdir mənə dağ yolu!
Yaşadım cibim boş, ürəyim dolu,
Qəlbim fırtınalı, başım alovlu
Başına döndüyüm, yadıma düşdü...

İndi gülürsünüz, gülməyə nə var,
Bu yüngül zarafat olsa da bəsdir!
Bir ölüb gedənə, bir də keçmişə
Ağlamaq lazımdır, gülmək əbəsdir!

Çox ucuz qiymətə alıb satarlar,
Doğma beşiyimi mən ucuz tutsam,
Ömrümü unutmuş olardım, əgər
O qara daxmanı bir gün unutsam.

Mən son nəvəsiyəm Qurban kişinin,
Qürurla çəkirəm hər vaxt bu adı.
Hərdən çox "təəssüf" edirəm, lakin
Qızıllı, gümüşlü babam olmadı...

Bəzən tutulmadı sapdı yağılar –
Pullu balıq kimi əldən sürüşdü...
Harda fürsət tapdı ötürmədi heç –
Qızılla, gümüşlə iroli düşdü...

Yox, yox! Düz demədim təəssüf niyə?
Niyə qibtə etdim mən o yadlara!
Vəzifə, ixtiyar, ehtikar üçün
Bizimlə "həmməsləк" olan qurdlara?!

III

Ev uçdu, ümidim uçmadı ancaq
Lay-lay söküldüsə uca daş-divar:
Əyilib sinəmə düşəndə başım,
Başıma toplaşdı dostlar, tanışlar.

Deyən düz demişdir - yaxşılıq itməz! –
Bir gün itən qızıl tapılacaqdır!
Ürək-dirək vermək heç az iş deyil,
Adama dar gündə böyük dayaqdır.

Gəlib daş daşıyan, ağac daşıyan,
Boz əhəng tozunu udan da oldu.
Evin xım yerini qazıb kürəklə,
Torpağını çölə atan da oldu.

Qiyməti böyükdür, bilirəm, özüm,
Dosta sədaqətin, yara ilqarın:

Mən də zəhmətini az çəkməmişəm
Bizə kömək edən o qohumların.

Minnətli çörəyi yemək çətindir.
Ölsəm də yemərəm onu acından!
Burda gördüyünüz ağacın, daşın
Özüm yapışmışam ağır ucundan...

Mən bu sadə evi tikdiyim zaman
Duydum ürəyimdə qürur, ehtişam.
Çünki bu binanın möhkəm özlünü –
Bünövrə daşını özüm qoymuşam.

Bir də ona görə belə şadam ki,
Heç xilaf çıxmadım könlüm deyənə,
Gəzdimsə dünyanın dördə birini
Öz doğma yurduma qayıtdım yenə.

Haman bu torpaqda mənim əlimlə
Uzun qərinələr, illər görüşdü –
Kimsənin yurdunu məskən etmədim –
Binam öz babamın yurduna düşdü...

Sarıvəlli kəndi, avqust, 1964

ARXALANDIĞIM

Elin səadəti olubdur müdam,
Gündə neçə dəfə mənim andığım.
Yox, xırda təpələr deyil, hər zaman,
Arxalı dağlardır arxalandığım.

1977

EL SOVQATI, EL PAYI

Bizə gələnlər vardı
Çalışırdıq vurhavur...
Qonağa hörmət etmək,
Qədimdən borcumuzdur.

Deyirəm, dostlar, bunlar
Gəlib öz kəndimizdən.
Yaxşı iştahla yeyin,
Xahiş edirəm sizdən.

Bunların həm ətrinə,
Həm dadına baxın bir.
Kəndimin hər məhsulu
Hər meyvəsi şirindir.
Oylağımdır o yerin
Həm aranı, həm dağı.
Mənim üçün əzizdir,
Hər bir qarış torpağı.

Bunları çox sevdiyim
Qara torpaq bitirib.
Bağında, bağçasında
Qohum-qardaş yetirib.

Dostlar, gedəcəksiniz
Anlamışam bunu mən.
Sizin yolunuz keçir
Bizim kəndin içindən.
Mənim dilimdən deyin,
Elimizin əməyi
Daha məhsuldar olsun!
Mənim dilimdən deyin,
Bizi heç unutmayan
Qohum-qardaş sağ olsun.

1981

ŞƏNLİK MAHNISI

Ömür kitabının ağlı qaralı,
Yazılı, yazısız varaqları var.
Baxdım bir-birinə heç oxşamayır,
Eyni bir kitabda olsa da onlar.

Gün var ki, heç yada salmağa dəymoz.
Gün var ki, ağ günə çıxarır bizi.
Gün var ki, günlərin düşür önünə,
Bir qızıl sabaha aparır bizi.

Belə gün hər kəsə qismət olmayır,
Kürəmiz çox da ki dolanır dönür.
Bayram yaz gününə düşəndə, həmin
O günün özü də bayrama dönür.

Ucalır zirvəsi qarlı dağlar tək,
Qəlbimdə əzəmət, vüqar, chtişam. –
Qanım ona görə belə coşur ki,
Bağlarda yasomən ətri duymuşam.

Keçən il küsdürdüm, şeir yazmadım,
Bu il mən baharla barışam gərək!
Yaşıl sahil boyu uzanıb gedən,
Uzun cərgələrə qarışam gərək!

Bir köhnə dostumdan uzaqlaşıram,
O məni çox sevir, ata bilməyir, –
Qocalıq arxamca sürünür, lakin
Yüyürür-yıxılır, çata bilməyir.

Əlləri bayraqlı, döşləri güllü,
Gümrah cavanlara çatmasam olmaz!
Öz dostluq nəğməmi, şənlik mahnımı
Xalqın gur səsinə qatmasam olmaz!..

1975

GƏTİR OĞLUM, GƏTİR!

(Balaca Babəkə)

I

Düşündüyüm zaman otağımda tək,
Mənə hey baxırsan gülümsəyərək
Bilmədim, ey körpəm, mənası nədir? –
O şeytan gözlərin gözlərimdədir.
İstərəm şəfqətlə hər səhər, axşam.
Əsmər saçlarını sevəm, oxşayam.
Tumbul əllərini əlimə almaq,
Baxıb gözlərinə xəyala dalmaq.
Şirin olmazdımı şair atana?!
Quş kimi üstümə qanadlansana!
Öpmək istəyirəm yanaqlarından,
Titrək dodaqlarım lakin hər zaman,
Soyuq bir kağıza toxunub dönür,
Sevinc ümidlərim gözümdə sönür...

Evə dönən zaman qaşqabaqlı mən,
Fərəhlə üstümə atılıb həmən
Köksümə qonardın... Qəmim vardımı?
Qolların boynuma dolanardımı?
Soruşdum, dinmədin, mənə söylə, sən,
Bəlkə bu əksindir, özün deyilsən?..

II

Mən kənddə doğuldum, sənsə şəhərdə,
Sən beşikdə yatdın mənsə yəhərdə.
Yatım boz otlaqda boz dovşan kimi...
Gözümüz dünyaya açılan kimi
Mən çomaq götürdüm, sən kağız, qələm,
Çomaq bir aləmdir, qələm bir aləm...

Dolandı sənələr, dolandı aylar
Gah dondu, gah coşdu, bulandı çaylar.
Zaman hökm elədi... Bir qərib axşam,
Yolun məskənimə düşdü nagahan.
Səni oğul kimi o yerdə mənsiz
Bağrına basdımı ana kəndimiz?
Xoşuna gəldimi Kürün kənarı?
Gördünmü, gördünmü göy çinarları?
Mahnı deyə-deyə mənimtək, hər gün
Üstünə çıxdınmı Qızıl körpünün?
Oradan Xramı süzdünmü məğrur?
Dəli burulğanlar vurhay burulur,
Odur hey dolanır bayaqdan bəri.
Girdablar içində saman çöpləri...
Onları seyr edib düşündükcə sən,
Batıb burulğana itir gözündən...
Həyatın da belə girdabları var.
Qərq olur üzməyi bacarmayanlar!..

III

Demə uzaqdasan, qaçdın gözümdən,
Hər zaman kəndimin içindəyəm mən.
Görürəm, səfalı bir yaz axşamı,
Çinarın dibinə yığışır hamı.
Oğlanlar gümrahdır, qızlar təzə-tər,
Bayram paltarını geyib gəlinlər –
Bu saz məclisindən olanlar halı –
Kəndin ağsaqqalı, qarasaqqalı
Oraya toplanıb... Sən də bu axşam,
Orda uşaqların arasındasan.
Məclis maraqlıdır... nə səmir, nə səs...
Oturub maraqla dinləiyr hər kəs.
Ortada vüqarla aşıq gəzişir,
Danışır arabir, deyir arabir.
Bir qoca yerindən səslənir bu an:

– Aşıq, bir nağıl de, səsinə qurban!
Hamı vəcdə gəlir... Bu məsləhəti
Bəyənib dəyişir aşıq söhbəti;
Bir dastan başlayır coşqun həvəslə,
Min yerdə xal vurur yanıqlı səslə.
Aşıq ürəkləri simə bağlayır,
Pərdələr gah gülür, gah da ağlayır.
Tellərə dəydikcə yanıqlı mizrab,
Sinələr köz olur; ürəklər kabab.
Aşıq sədəflərdə bükdükcə simi,
Məclis dalğalanır bir dəniz kimi...
Yaydıqca nəğməni çöllərə rüzgar,
Xəyal aləminə uçur xəyallar...
Qaranlıq qarışır... gözündə bəzən,
Sehrli səhnələr yaranır birdən;
Bax odur, qullara qatırlar səni,
Zəncilər yurdunda satırlar səni...
...Qürbətdə hər kəsdən əzizdir ana –
Qaçmaq istəyirsən doğma yurduna.
Biri qollarından tutub sürüyür...
Birdən yamacları yanğın bürüyür –
Alovlar dilini uzadır sənə,
Qaçırsan... dalından yetişir yenə.
Mələk nazil olur bu anda göydən,
Gərib qanadını yerlərə həmən.
Sənə bir əfsunlu tilsim yetirir...
Dənizlər kükrəyib odu keçirir.
Lakin, əjdər olur suda hər yosun
Səni əjdahalar istəyir udsun,
İldırım qılıncın qınından çıxır,
Göylər guruldayır, şimşəklər çaxır.
Gözlərində alov, başında duman
Yolun bir meşəyə düşür nagahan...
Tökülür üstünə qaplan, pələng, şir,
Ağaca çıxırsan... ağacda didir
Meşə yapalağı, meşə bayquşu,

Yetir harayına tez humayquşu.
Gəlir dar günündə köməyin, gəlir,
Səni şəhərinə alıb yüksəlir.
Quzum! Nağılları dinlədikcə sən
Söylə, sıxıldınmı bu səhnələrdən?
Xeyir, laqeydsən görürəm bir az,
Sənə ucuz gəlir bu söhbət, bu saz.
Çəkilib durursan gülümsəyərək...
Saz oyun deyildir, düşündüyüntək!..
Onda "Kərəmi" var, onda "Cəngi" var,
Hər simdə bir əsrin öz ahəngi var.
Titrəyən hər ağ sim, çınlayan hər səs,
Hər şirin zəngulə, hər şirin nəfəs
Bizə yadigardır əcdadımızdan.
Ellərin qəlbindən qopduğu zaman
O bəzən yüksəlir, bəzən alçalır,
Hər pərdə bir dövrün dərdini çalır...
Xalqın əzoməti, fikri, xəyalı,
Onun hissi, zövqü, ağlı, kamalı
Sanma bir qılıncda, bir hünərdədir,
Onlar bu sazlarda, bu sözlərdədir!..
Bu günün qəlbinə girmək istəsən,
Durduğun pillədən hələ bir az en.
En! Uçan alçalar, enən ucalar,
En! Yerin tərkində xəzinələr var.
Demə, "köhnə sözün mənası nədir?"
Hər söz, anlayana bir qərinədir!..
Bir günün hökmündən yaranır min il,
Bir kiçik qətrədən törəyir bir fil.
Hər fikir mülkündə zərrin tac yatır,
Hər meyvə tumunda bir ağac yatır.
Hər kiçik bayatı xalqın səsidir,
Kamal dünyasının xəzinəsidir.
Nağıllar dərindir, bir ümman kimi;
Xəyal göylərində uç torlan kimi!
"Boş əfsanələr" də həqiqət axtar!
Sən axtar, çəkinmə axtaran tapar!..

IV

Durma, qonaq kimi doğma elində;
Odur, görürsənmi, dağın belində
Təkcə bir ağac var – armud ağacı.
Onun yarpağıdır başımın tacı.
Onu mən basdırdım öz əllərimlə –
Suvardım, bitirdim əməllərimlə.
Onunla yanaşı bir şitil basdır,
Qoyma gələn ilə, get bu il basdır
Günbəgün boy atıb göylərə uzun,
Onlar bizim kimi yanaşı dursun..

V

Hər kiçik böcəyin adı var, quzum,
Hər meyvənin ayrı dadı var, quzum.
Ana təbiəti duyub dərindən,
Bu qoca dünyanın sirrini öyrən.
Üfüqlər al geysə, şəfəqlər əlvan,
Yaxşı bax, seçə bil rəngi boyadan...
Harda qırov durur, harda şeh durur
Göyün qurşağında neçə zeh durur?..
Nə zaman qar yağır, nə zaman dolu?
Nə zaman sel qopur, uçurur yolu?
Aşıqlar nə zaman aşıb-daşırlar?
Nə zaman yarpaqlar pıçıldaşırlar!..

VI

Bahar gecələri enib sahilə,
Uçan ləpələrin səsini dinlə!
Gümüş dalğalarda Ay baxan zaman
Düşün, gör nə deyir çay, axan zaman?
Onun da dili var, quzum, danışdır!
O çayda hər damla mənə tanışdır;
Hər zərrə dünyanı dövr edib, inan,

Gəlib milyon dəfə keçmiş yanımdan.
Bəlkə o sahili məskon cdərkən,
Min dəfə içmişəm hər damlanı mən...
Dəli dalğaların belindən aşdım,
Üzən gəmilərə üzüb yanaşdım.
Qanadım çaylardan aldı hünəri,
Ah, duya bilsəydim bu hikmətləri!..

VII

Kəndin kənarında səhər çağları,
Məni bir anlığa andınmı, barı.
Girib arasına yaşıl otların?..
Odur, görürsənmi ağ buludların
Bəyaz yanağında qara xal süzür,
Xal deyil, vüqarlı bir qartal süzür.
Qəlbin qoy həsədlə etməsin qübar,
Qartaldan yüksəkdə uçanlar da var:
Onlar öz ilhamım, öz xəyalımdır –
Bu mənim Günəşlə ilk vüsalımdır!
Quzum, könlüm kimi uçmaq istəsən,
Əzəl yaxşı bağlan bu torpağa sən!..

VIII

Bunlar xatirədir... Qızarırdı dan...
Yarıb naxırları, qonşu naxırdan.
Hayqıra-hayqıra dırmaşıb dağa,
Torpağı başına sovuran buğa.
Hampıllı bir kəllə üz-üzə gəldi
Tez buynuz-buynuza, diz-dizə gəldi
Elə bil, yerindən oynadı hər yan
Yerlərdən od qopdu, göylərdən duman.
Bulandı gözləri gur bulaqların
Əkildi şum kimi, döşü dağların.
Getdikcə təpəlin buynuzu qızdı –
Qızdı qara kəlin buynuzu, qızdı,
Bir kəllə endirdi, çəkmədi bir an

Buğa yuvarlandı boz qayalardan.
Quzum, bu misaldır, başa düş məni,
Döyüşə girməmiş yoxla kəlləni!!!

IX

Mən də o yerləri gəzdim bir zaman,
Min xatirəm vardır uşaqlığımdan.
Elə sənin kimi uşaq idik biz,
Gəlin köçürürdü bir gün kəndimiz.
Qəlbi döyünürdü bütün elatın...
Sindi yalmanına cavanlar atın;
Buraxıb cilovu, nə qədər ki, var,
Quş kimi yanaşı uçuşurdular.
Lakin alınmışdı toyun nəməri,
Bizim qonşu kənddən azacıq bəri
Tozanaq gəlirdi, xeyir, yəqin bil.
O bir atlı idi, tozanaq deyil:
Gümüş qantarğalı, gümüş yəhərli,
Yalmanı köpüklü, sarğısı tərli.
Boynunda kəlağay, döşündə nəmər,
Cıdır meydanında süzən bir kəhər
İnan ki, çıxmamış hələ yadımdan.
Oğul, bu yerlərə döndüyün zaman
Şərəfli ad qoyub elində, qayıt,
O dəli köhlənin belində qayıt!
Qəlbin təbiətə uyarsa, gətir, –
Gətir, çox sevdiyim nə varsa, gətir!
Mən, gətir, söylədim, bəlkə heç bu gün
Burda nə kənd lazım, nə də köhlən at,
Fəqət öz qəlbində, xalqımız üçün
Faydalı nə varsa, onu sev, yaşat!

X

Günlər keçirmişəm ağlı-qaralı;
Bəzən gülərüzlü, bəzən yaralı.
Yazı qəm çəkmişəm, qışı əziyyət,

Mənə qəsd eləyib bəzən təbiət
Donmuş əllərimi oda vermədi;
Kaşanə istədim, o da vermədi.
Simü-zər dilədim, axça vermədi.
Gülüstan dilədim, bağça vermədi.
Mal-dövlət istədim, mənə vermədi.
Bir nemət istədim, yenə vermədi.
Birco könül verdi, mənə o yerlər,
Odur ki, adıma şair deyirlər –
Şer məclisində sevirlər məni...
Lakin, nə ad məni, nə hünər məni
Əsir eyləmədi... əsir olma heç!
Sən adı, şöhrəti ayaqlayıb keç!
Birco könül gətir dönüb gələndə,
O böyük qəlbinlə fəxr edim mən də!..

XI

Bir gün bu yerlərə dönüb gələrkən,
Topla, xumar gözlü bənövşələrdən!
Bir az gecikdinmi, nanə, üzərrik,
Özəkli baldırğan, çiçəkli yemlik,
Kişniş, kəklikotu, çobanəppəyi,
Lalə, xoruzgülü, qaymaqçiçəyi,
Qulançar, quzqulaq, tərə, göbələk,
Albalı, qarağat, moruq, çiyələk,
Bunlar şirin nemət, şirin diləkdir,
Sevməyən sevməsin, mənə gərəkdir!..

XII

Hər yerin öz gücü, öz qüvvəti var,
Bir ovuc torpağın min neməti var.
Qara qoç, boz qoyun, göy təpəl quzu...
Ağ ceyran dırnağı, maral buynuzu.
Qırqovul quyruğu, tovuz lələyi,
Bir aslan pəncəsi, bir şir biləyi,

İti qırğı gözü, tərlan qanadı,
Min bir çiçək adı, min bir gül adı...
Ötürmə bunları, quzum, sən gətir,
Bilməz bu neməti hər yetən, gətir!!!

XIII

Kömürdən almaz çək, yarpaqdan ipək,
Daşdan gövhər çıxart, buluddan şimşək.
Gətir, ildırımın məğrur səsini,
Qumru bulaqların zümzüməsini.
Zəmilərdən, sünbül, bağçalardan bar,
Dərələrdən vüsət, dağlardan vüqar...
Özünlə çiçəkli, güllü yaz gətir,
Bir aşıq mahnısı, bir də saz gətir!
Gətir, yollarına müntəzirəm mən!
Gətir, bu fürsəti vermə əlindən!
Ana yurdumuzun nəyi var gətir –
Məhəbbət, sədaqət, etibar gətir!..

Bakı, aprel, 1943

BAKININ İŞIQLARI

Gecə aydın, hava sakit, dəniz də bir quzutək...
Göyərtədən seyr edirik, yanan üfüqləri biz:
Üzü pullu ləpələrin, sinəsindən keçərək,
Dərin bir iz qoyub gedir arxasında gəmimiz...

Bəlkə beş-on çıraq yanır hər kəsin mənzilində
Lakin, onlar çox yaxındır, zərrin çilçıraq kimi.
Bu birləşən gur işıqlar Xəzərin sahilində,
Sancılmışdır Abşerona bir qızıl oraq kimi...

İşığa bax!.. Düşünürəm mən xəyala dalaraq,
Kim canını qurban verməz belə yurda, vətənə?!
Bir ölkənin paytaxtında əmək çəkmək, yaşamaq
İftixardır, səadətdir öz yurdunu sevənə...

Qaranlıqda yaşadığım heç çıxmamış yadımdan,
Zülmətlərdə keçən günüm yenə məni yandırır.
Deyirdilər al Günəşdir yeri işıqlandıran,
İndi yerin al günəşi göyü işıqlandırır.

Köhnə kəndi xatırladım, burda bir anlığa mən
Qara daxma... Qara çıraq... indi qəlbimə dardır.
Bu çıraqban gur şəhərə baxıb dedim ürəkdən:
Bakı əhli olmaq özü bir böyük iftixardır.

Qollarımı gərdəninə istədimsə dolamaq
Heyif, yaşım çox olsa da ona boyum çatmadı.
Bakı uzun qollarını mehribanca açaraq,
Bir istəkli ana kimi boynumdan qucaqladı.

Milyon canlı, milyon səsli, milyon çıraqlı Bakı –
Mənim ana torpağımdır, yurdumdur, məskənimdir.
Ürəyim də ona görə iftixarla vurur ki,
O sayrışan işıqların birisi də mənimdir...

Bakı, avqust, 1948

ŞAİRİN ARZULARI[1]

(*Proloq əvəzinə*)

Dəyişir iqlimi insanın əli,
Həyat ildırım tək qaçır irəli,
Bizdə min xariqə yaranır hər an –
Həqiqət tez doğur bəzən xəyaldan.

Artıq, soruşmayın – mənim nəyim var –
Qəlbim var, könlüm var, min istəyim var!
Bütün qüvvələrdən güclüdür insan;
Mən də bir dev kimi, azıman kimi

[1] Bu poema ilk dəfə "Fantaziya" adı ilə nəşr olunmuşdur.

İstədim Xəzərin dodaqlarından,
Yapışıb qaldırım bir qazan kimi.
Bu geniş düzlərə əndərəm onu,
Çöllər çiçəklənə, mən dərəm onu...
Belədir, belədir bu günün hökmü,
Budur məftun edən şair könlümü.

Zaman atlı kimi qaçır çaparaq,
Gərək ayaqlaşaq zamanla biz də...
Bir böyük şərəfdir alıb daşımaq,
Bu qızıl günləri öz çiynimizdə.

Uçarmı olmasa quşun qanadı?
Qoy batsın xəyalsız şairin adı!
Əsər çırpınmasa, yaşayar çətin,
Xəyaldır qanadı şerin, sənətin...

Məni danlamasın yenə hər yetən...
Varsın, bəyənməsin sətirlərimi.
Burnundan uzağı görə bilməyən,
Sənət meydanına girə bilərmi?

Hissini, könlünü, düşüncəsini
Kim verə bilmirsə bizim vətənə –
Atsın qələmini, kəssin səsini,
Kimin ağır gəlsə başı qəlbinə!

Görünür gözümə – qızardıqca dan –
Böyük gələcəyi əziz ölkəmin.
Sənətkar, el deyə, yazdığı zaman,
Topdan artıq olur gücü qələmin!..

Yaxamız qurtardı ahdan, haraydan,
Lakin, unutmayaq bu hökmü yalnız:
Əlimiz tutsa da Günəşdən, Aydan
Yerdən üzülməsin ayaqlarımız!..

YENİ QATARLAR

Gözəl uşaqlarım tutmuş əlimdən,
Artıq, ata kimi ağır-ağır mən
Çıxıram ağ mərmər pilləkənləri...
Bu günün ən canlı, ölməz əsəri –
Yeni bir aləmə düşübdür yolum;
Fərəhlə çırpınır qanadım-qolum.
Yeni təntənə var, yeni büsat var,
Burda ildırım tək süzür qatarlar,
Dağüstü parkına uzanır bu yol,
Sevinirəm buna ürəkdən min yol.

Könlü qocalmasa, qocalmaz insan.
Mən az sevinmədim uşaqlarımdan
Güləndə yamacım, güləndə yalım...
Qanadlı xəyalım, coşqun xəyalım.

Açıq səmalarda qıy vurub uçur,
Vur, ey coşqun könlüm, vulkan kimi vur,
Bu yerdən can alıb coşan eşqimlə,
Uçan buludlara qoşan eşqimlə!

Könlümdə çox şirin diləklərim var...
Uçur şair könlü – uçur qatarlar –
Qızıl güllə kimi qaçır arxama,
Bir şeir başladım kəndə – anama:

Birinci şeir

Qohumlar, qardaşlar, ellər, obalar,
Bir məni dinləyin, sizə sözüm var!
Əziz oğlunuzam, çəkin nazımı,
Sizinlə bağlamış bir ilqar məni!
Düzüm simlərimi, çalım sazımı,
Qoyun, bir dinləsin obalar məni!

Cağlı arabalar, çüylü təkərlər,
Haray çəkən səsli-küylü təkərlər.

Torpağın qəlbində açdıqca yara,
Babamın dərdini yazdı yollara...
Hörük, boyunduruq, kaqan və samı
Əcəlsiz öldürdü yazıq atamı...

Əli kömür anam, başı qar anam,
Mənə çörək vermiş ixtiyar anam.
Afərin[1] yaşından otuz il əvvəl,
Dişləri tökülmüş iki taxta vəl
Sürüyüb, çıxardı tozlu xırmana...
Onu mən unutsam ana, ay ana,
Özün demiş kimi – yerim "gor olsun!"
Əlim topal olsun, gözüm kor olsun!
Dolandı xırmanı arıq öküzlər,
Anam da onlarla dolandı, döndü,
Fəqət görünmədi arpadan əsər,
Gözünün tutarsız işığı söndü.
Yandırıb-yaxdıqca yayın istisi,
Dəyirman daşı tək firlandı başı,
Xırmanın tozunda tutuldu səsi,
Axdı önlüyünə isti göz yaşı.
Qabarmış əlləri bulandı qana,
Söylənə-söylənə ağ birçək ana
Söydü iqbalını, söydü bəxtini;
O, taxıl döymədi, döydü bəxtini...

İkinci şeir

Qatarım qaçdıqca üzü yuxarı,
Bürüyür hər yandan bizi dumanlar.
Güneylərdə çəmən, quzeylərdə qar
Qoparıb əlimdən alır könlümü.
Çağırır könlümü, çalır könlümü.
Mənə yad deyildir bu mənzərələr...
Açır qollarını dağlar, dərələr
Yolumda, müntəzir bir ana kimi;

[1] Şairin oğlu

Uçan xəyalımı çəkir özünə
Dağın dik zirvəsi, dərənin dibi.
Bir kiçik yarpaq da qoymayır gözüm,
Hər yana baxıram doymayır gözüm –
Zümrüd yamacların mənzərəsindən,
Köhnə kəndimizin xərabəsindən,
Çal-çarpaz çəkilimiş dəmir yolları
Uzanır al-yaşıl dağlara sarı.
Heç belə deyildi mən görən zaman,
Çöllərə baxanda sevinir insan:

Elin cah-calalı tutub hər yanı...
Sağmal inəkləri gəlib sağılır,
Qatarım qışqırıb ötən zamanı,
Sürülər, naxırlar qaçıb dağılır.

Çobanlar əlini uzadır mənə:
– Şair, xoş gəlibsən doğma vətənə!..
Xəyalım çırpınıb dağları aşır.
Gözümdə gülşənlər, güllər oynaşır...
Elə bil, mizrabım toxunur tara,
Şeir kitabımı verib onlara,
– Çatıb qaşlarımı hər səhər, axşam
Sizi düşünmüşəm, sizə yazmışam;
Hər sözüm bir səhər, bir gələcəkdir...
Ey əziz dostlarım, oxuyun məni!
Uzun dastanımı dinləyəcəkdir
"Dağlar şairinin" yordu, vətəni,
Ey əziz dostlarım oxuyun məni!..

Kəndimin içində dayanır qatar.
Qocalar, qarılar, qızlar, oğlanlar
Əziz qonaqlarla görüşüb gedir,
Atılır bəzəkli dəmətlər bir-bir.
Şairin açılmış pəncərəsindən,
Elin qüdrətindən, elin səsindən
Yenidən qüvvəyə, cana gəlirəm.
Deyirəm: ay ana, ana gəlirəm;

Dirçəlir dizlərim, cana gəlirəm!
Qoyun, mən deməyim, özünüz deyin –
Bəlkə, düz demədim, dostlar, mən bunu –
Yalvarıram sizə fəqət düz deyin:
Sevməyən olarmı doğma yurdunu?..
Dalbadal axdıqca avtomaşınlar,
Yaşıl xiyabanlar qaçır, uzanır;
Mənim bundan artıq nə diləyim var,
Kəndimin içində fənərlər yanır.
Çəkilib yolların toz ətəyindən,
Geniş yamacların boz ətəyindən
Gurhagur, qıjhaqıj töküldükcə Kür,
Açıq üfüqlərə baxıb düşünür
Böyük bir insanın ağır heykəli,
Onun uzaqlara uzanan əli
Bu yer kürəsini qoşub günəşə.
Gecəsiz dünyaya aparacaqdır,
Onda el gücü var, el gücü-haqdır!..
Necə sevinməyim, insanam mən də,
Göylərə uçmağa bu gün hazıram.
Doğma kəndimizi yeni görəndə.
Şeirimin sonunda belə yazıram:
Dünyanın ölməyən adamıyam mən!
Yaxamı qurtardım artıq ölümdən,
Dünyanın ölməyən adamıyam mən!..

Qatarım baş alıb el kimi uçur,
Mən yazıb-pozuram yenə vurhavur,
Əsir dodaqlarım, qaçır əllərim...
Düyünlü sözləri açır əllərim,
Əsir dodaqlarım, qaçır əllərim...
Kim bizim sabaha əmin olmasa,
Ona gülünc gələr mənim yazdığım;
Sənətim ölkənin, elin olmasa –
Toplayın, nə varsa yazıb-pozduğum,
Məzarım üstündə od vurun yansın,
Xəyalım odlansın, şerim odlansın!..

BAKI YAYLALARI

İnsanın əliylə dəyişir iqlim,
Doğruldu istəyim, arzum, əmolim.
İlandan, çayandan yaxa qurtaran
Əkinsiz, biçinsiz quru boş şoran,
Minillik yuxudan bir gün oyandı.
Hər il gübrələndi, hər il sulandı,
Ala paltarını geydi çiçəkdən.
Şerimə söylədi: – son də gey, bəzən,
Zərif duyğuların qumaşlarını;
Sıldırım dağların quzey qarını,

Yetər, göz yaşıyla sizə söyləmək,
Var olsun el gücü, var olsun əmək!..
Buludsuz, dumansız odlu yay günü,
Töküb saçlarını, açıb gözünü,
Şəhərin üstündə ucalan Günəş.
Aləmə can verib, can alan Günəş...
Geniş pəncərəli uca evlərin
Vurur yanlarına yel sərin-sərin;
Uzanıb göylərə ala çinarlar,
Salıb kölgəsinə çöldə hər nə var.

Bakını hər yandan bürümüş meşə,
Qərənfil, yasəmən, nərgiz, bənövşə,
Akasya, yasəmən, söyüd ağacı;
Sərvlər evlərin başının tacı.
Güllər qıpqırmızı, çiçəklər sarı...
Kəsib cığırları, tutub yolları.
Sarmaşıq sarılıb uzun kollara,
Moruqlar qızların gözündən qara...

Meşə quşlarının doyubdur qarnı;
Vurhay, külünc kimi, burunlarını
Vurur kötüklərə ağacdələnlər,
Eşidir səsini gedib-gələnlər.
Açıq talaları seyr edirəm mən:

Ovçular tazılı-tulalı gəlir;
Seçmə dağılmamış qoşalülədən,
Meşənin içində tüstü yüksəlir.
Ağ məxmər yamızlı, ala dırnaqlı,
İri buynuzları pərli-budaqlı
Maral sürüləri qaçıb dağılır;
Yenə ağacları tüstülər alır...
Qalın qızılcağa soxulur qaban,
Qolunun üstündən töküləndə qan,
Tazılar belinə sıçrayıb minir,
Tüfənglər yenidən açılır bir-bir,
Duyur uzaqlardan bu halı ceyran,
Yanları boz, körpə balalı ceyran...

Yayları istidən, oddan, alovdan
Dağlara qaçmayır ayağı tutan;
Şoranda, qumsalda salındı bağlar,
Qoy həsəd aparsın dumanlı dağlar!..

Sarsılmaz biləklər vurduqca mətin, –
Babamı öldürən boz təbiətin
İnsanlar hakimi olduğu zaman,
Gəldi qapımıza narzan bulağı;
Bakının özündə yaratdı insan
Çiçəkli yaylağı, güllü yaylağı...

Qəribə gəlməsin bu "möcüzələr",
Gündə min xariqə yaradır insan.
Şəfa tapsın deyə, ağır xəstələr,
Bizə göndərilir Şvetsariyadan.
Bakının göy çəmən yaylaqlarında,
Yaşıl ağacların budaqlarında
Oxuyur qayğısız meşə quşları.
Yuxumun içində gecələr yarı
Sərin yatağıma, gül yatağıma,
Yazı otağıma, iş otağıma
Yayılır ətiri çiçəyin, gülün.
Gəlir pəncərəmdə səsi bülbülün...

Uçurur göylərə xəyalım məni,
Düşmən çox görməsin könlüm deyəni.
Doğrulur istəyim mən atdıqca boy,
Bizə inanmayan yaşamasın qoy!..

SƏNƏT SARAYI

Özündə qalmayır halı bir yerin,
İnsan iqlimini dəyişir yerin.
Sərin fantanların başı lilparlı,
Arxası bağçalı, yanı çinarlı...
Bir saray tikilmiş dağın belində
"Sənət sarayı"dır bu evin adı.
Böyük şairlərin doğma elində
Nələr yaranmadı, nələr olmadı?..
Onun top dağıtmaz divarlarında,
Ellərin pozulmaz düz ilqarında
Şanlı vuruşmalar, üsyanlar yatır,
Xalqın yaratdığı dastanlar yatır...
Məğribdən, məşriqdən gələn qonaqlar,
Mühəndis, yazıçı, memar, bəstəkar
Geniş təbloları seyr edib bir-bir,
Sərin otaqları dolanıb gəzir.
Şərqin şah əsəri – böyük əsəri
Dünyanın ən gözəl abidələri
Burda məskən tapıb – cənnət içində.
Qonaqlar diz çökür heyrət içində,
Böyük hikmətinə bizim ölkənin;
Başım buludlara ucalır mənim!..
Budur, qarşımızda bir sənət əri
Yonur ağ mərməri səhərdən bəri,
Düşünür hər zaman, duyur hər zaman,
O, "insan" yaradır bu qayalardan.
Deyir: "İşlədikcə mən yavaş-yavaş,
Bir insan olacaq gördüyün bu daş".

Möcüzə deyildir, məncə gerçəkdir,
Sənətkar cansıza can verəcəkdir!
Rəssam da bir yanda açıb başını,
Qıyır gözlərini, çatır qaşını...
Vurur sinəsində qəlbi müntəzir,
Fırçası əlində yüksəlir, enir;
Qaynar bulaq kimi aşıb-daşır o,
"Dünya sərgisinə" hazırlaşır o.
Xiyabanlar uzun, göy bağçalar gen,
Şair olmayan da coşur ürəkdən,
Atır buludlara suyu fantanın,
Fərəhlə çırpınır könlü insanın.
Həyat yeniləşir, yaşadıqca biz:
Yorulmaq bilməyir şairlərimiz,

Dayanıb heykələ ağır düşünür,
Ağarıb saçları qara dönübdür.
İstəyir başına buludlar ensin,
Mahir sənətkarın, şair Səmədin –
Yovşana dönübdür qara qaşları
Kəsdirib yanını öz uşaqları,
Sakitcə dururlar nə səmir, nə səs...
Baxırlar əlinə dinməz, söyləməz;
O yeni dönmüşdür bu gün Parisdən,
Gəlib görüşürəm öz dostumla mən.
– Bu gün başa çatır yazdığım dastan...
– Gələrəm, olanda macalım yenə...
– Çırpınıb göylərə yüksəlir, inan,
Uçur uzaqlara xəyalım yenə...
Min bir hava çalır qəlbinin simi,
Vərəqin milləri bir qoşun kimi
Qələmin dalınca səflə uzanır,
Önündə kağızlar alışıb-yanır...
– Yaz, dönüm gözünə, – dedim – durma, yaz!
Qüdrətli sənətkar, əlin var olsun!
Yazdığın hər kəlmə bir ehram kimi.
Bizim dünyamızdan yadigar olsun!!!

MƏN SƏNİ SEÇDİM Kİ...

Mən səni seçdim ki, yoldaş mühəndis,
Gecəli-gündüzlü çalışıb həmən –
Qızıllar yatağı Azərbaycanda,
Yeni dəfinələr kəşf eləyəsən.

Mən səni seçmişəm, əmələ qardaş,
Gözəl paytaxtımız şən olsun deyə.
Çalış, əl qabarın, alın tərinlə,
Möhtəşəm saraylar ucalsın göyə.

Mən səni seçdim ki, su kəmərləri
Çəkəsən dağları yarıb dərindən.
Durna gözü kimi dum-duru, sərin
Çay axsın Bakının küçələrindən.

Mən səni seçdim ki, ölməz bir iş gör,
Bilər qiymətini bizim nəsillər.
Arazın belindən bir körpü çatsan,
Torpaqdan-torpağa istilik keçər...

Mən səni seçdim ki ana kəndimə
Telefon çəkilsin bu illər, hökmən!
Bakıdan birbaşa danışıb hərdən,
Xəbər tuta bilim doğma elimdən.

Mən səni seçdim ki, yoldaş aqronom,
Ağaclar yanmasın, güllər solmasın.
Çalış, bərəkətli qırmızı buğda
Elin anbarından əskik olmasın.

Mən səni seçdim ki, dəyişsin iqlim,
Çöllərdə gül bitsin, qanqal bitməsin.
Turac ovlamağa bizim ovçular,
Bir də Abşerondan uzaq getməsin.

Mən səni seçdim ki, bizim elatın
Hər yanı al-yaşıl bağça, bağ olsun,
Geniş meydanlarda yansın fənərlər,
Gecələr kəndimiz çilçıraq olsun!

Mən səni seçəndə, möhtərəm alim,
Yeri də, göyü də süzdüm bir anda,
Yeni yeri seçdim mən bu cahanda...
Sənin də ayağın görürəm, budur,
Torpağın üstündə çox möhkəm durur.
Yer hey dolanmışdır Günün başına,
Demədim, bir anlıq dursun, dayansın,
Sən elə qaldır ki, yer kürəsini
Qoy Ərzin başına Günəş dolansın!..

1948

TƏQVİMİN SON VARAĞI

Ağacdan yarpaqlar endikcə bir-bir,
İl də arxasından atır yükünü.
Təqvimin kötüyü üstündə əsir
Tək qalan son varaq – ilin son günü...
Günlər! Əziz günlər, mənə deyin siz,
Yanımdan nə tezcə gəlib keçdiniz?
Əgər birinizdən yapışıb möhkəm,
Özümlə əbədi saxlaya bilsəm...
Yox, bu mümkün deyil, bir xoş diləkdir,
Ötən gün bir daha dönməyəcəkdir...

İndi xətt çəkilir, yekun vurulur,
Hər kəs öz varını qoyur meydana:
Qızıl qatarlara taylar vurulur –
Yeni qüvvət gəlir Azərbaycana!
Şair, bir işçi tək, bir mühəndis tək
Elin qarşısında hesab ver görək ··

Fəhlələr layları qazdıqca dərin,
Çatır məhvərinə buruqlar yerin...
Lakin bu lövhəni cızmaq istərkən,
Kağıza çatmayır qələmim nədən?..

Zamandır ölçüsü işin, hünərin;
Borcunu verməmiş keçən günlərin.
Gələcək günlərə qədəm basılmaz,
Təqvimin üstünə təqvim asılmaz!

Günlər, əlim çatmır, dağdan aşdınız,
Siz məndən əbədi uzaqlaşdınız.
Bu günün eşqilə yaranır hökmən,
Böyük insan gücü, insan hünəri.
Ehramlar qurardım dəqiqələrdən,
Qaytara bilsəydim ötən günləri...

İlin son günüdür, yaşadığım gün,
İmtahan verirəm sanki bu axşam.
Təqvimdən bir varaq qoparmaq üçün,
Bəlkə beş-on varaq yazıb pozmuşam.
Dostlar, gözləməyin doğan ülkəri,
Mahnılar söyləyin bir yeni səslə.
Qoparıb tək qalan son vərəqləri,
Yeni təqvimləri asın həvəslə!
Gülsün üzünüzə açılan səhər –
Yeni il, yeni iş, yeni fikirlər!
Hamı iş başına hər səhər erkən!
Günümüz keçsə də toyda-düyündə,
Elə başlayaq ki, birinci gündən
Peşiman olmayaq sonuncu gündə.

1947

TUT AĞACI

Mən ötüb keçdikcə, yolum hər səhər
Bir tut ağacının dibindən düşür;
O yeni boy atıb qalxır göylərə,
Mənim saçlarıma daha dən düşür...

Uzanır qarşıma əyri bir budaq,
Elə bil, sözü var, kəsir yolumu:
Dinib danışmayır, duyuram ancaq
Yaşıl gərdəninə salıb qolumu.

Qışda üryan idi bağçalar, bağlar.
Al-yaşıl geyinib yazda bəzəndi,
İpək qurdu kimi körpə uşaqlar
Yaşıl budaqlara daraşıb indi...

Biri lap ağacın kəlləsində tək,
Salxım budaqları əyib tut yeyir,
Həsrətlə baxıram... Sinəmdə ürək:
– Uşaqlıq çağını gəl unut! – deyir.

Hər gün boy atıram...Tarix dünyada
Ömrümdən bir an da kəsib atmayır;
Lakin budaqlara boyum çatsa da
Uşaqlıq çağına əlim çatmayır...

Ancaq bir təsəlli duyuram bəzən.
Bir şirin təskinlik mənə bəllidir;
Uşaq olmasam da dönüb yenidən,
Uşaqlıq günlərim bir təsəllidir:

Mənim unudulmaz bir xatirəm var,
Yazıram, tanışlar oxusun deyə;
Yay yeni girmişdi... Bir gün uşaqlar –
Hamı tut dərməyə getdik meşəyə...

Ağaclar içində, iti qırğıtək.
Hamıdan qabaqda gedirdim özüm.
Salxım söyüdlərin arasında tək
Bir tut ağacına ilişdi gözüm.

Ən şirin neməti bizim torpağın, –
Mənim çox sevdiyim qumral tut budur:
Uca zirvəsinə, hər şah budağın
Nə bir əl yetişir, *nə bir quş qonur.*

Aldıq dövrəsini bu ağacın biz:
Onun min qanadı, min qolu vardı.
Geniş kölgəsində, inanın ki, siz,
Yayları üç sürü qoyun yatardı

– Tuta kim çıxacaq?.. Şinidimsə mən,
Hamı təbəssümlə üzümə baxdı...
O qədər hündürə çıxdım ki, birdən
Yeri seyr edəndə gözlərim axdı.

Azacıq toxtadım... həmin bu zaman
Bir bölük qız gəlib oraya çıxdı, –
Elə bil ürkərək bir sürü ceyran,
Meşənin içindən talaya çıxdı.

Ağacda bir uşaq tut dərir təkcə,
İndi ona baxır qızların gözü...
O mənəm, şaxları silkələdikcə,
Bir gümüş rəng aldı otların üzü.

Sonra bir qovsara qayırıb həmən,
Doldurdum dənəbir qumral tutları.
Bir xəyala dönən o günləri mən,
Qoy yazım, yadımdan çıxmasın barı...

Bir topum var idi, bəzəkli ipdən,
Çıxarıb cibimdən tez onu sökdüm,
Hörmə sapanımı bölüb tənbətən
Bəzəkli iplərin ucuna düydüm.

Hədiyyəm hazırdı, onun hər yanı
Sarındı, yoxlandı yenə min kərə;
O şirin nübarı – o qovsarını
Ağacın başından salladım yerə.

Bəli, cavanlığın öz dünyası var,
Bilər eşq oduna düşübsə hər kim...
Yenən qovsaranı bürüdü qızlar,
Əllər uzandıqca mən ipi çəkdim.

Buludlar içində məğrur dayandı
Göylərdən enməyən laçın vüqarım;
Fəqət, göyərçintək bir əl uzandı,
Boşalıb yanıma düşdü qollarım.

Şəfəqli gözlərim qaraldı birdən,
Atdım əllərimi tez budaqlara;
Lakin ipin ucu çıxdı əlimdən
Endi güllə kimi yerə qovsara.

Al-yaşıl geyinmiş tala bəzəndi,
Otlar sırğa taxdı, yarpaqlar tənə,
Qovsara dağıldı, tut səpələndi,
Qızların içinə düşdü gülüşmə...

Ah, kimin əliydi o göyərçin əl?
Kimiydi eşqimi kəməndə saldı?
Bəlkə bir sehr idi o dilbər gözəl,
Qəflətən ağlımı başımdan aldı?

İndi siz deməyin – "o sehri unut!"
Onunla parladı eşqimin odu;
Müqəddəs bildiyim o qocaman tut,
Mənim ilk eşqimin şahidi oldu.

Hər quş bir bağçanı bəyəndi-seçdi,
Hər kəs bir cənnəti.. mən o yerləri...
Xeyli ömür keçdi, xeyli gün keçdi
Əlimdən qovsaram çıxandan bəri...

İndi bu yerlərdə yolum hər səhər,
Bir tut ağacının dibindən düşür.
O yeni boy atıb qalxır göylərə,
Mənim saçlarıma daha dən düşür...

1944

HEYKƏL

(Səməd Vurğuna)

Bakı... geniş meydan... qızmar yay günü...
Axır alınlardan puçur-puçur tər.
De, kimi görməyə bunlar tələsir,
Kimlərdir buraya axıb gələnlər?

Bağda, dayanmısan elə bil bu an,
Dostlar, tanışlar da öz yanındadır.
Çəkilib qaşların çəkili yaytək,
Yenə xəyal quşu asimandadır.

Ellər görüşünə gəlibdir, ey dost!
Belə əziz günü unutmaq olmaz!
Tərlan qanadlıdır sənin ki, təbin
Fürsəti fövt etmə, qələm götür yaz!

Yenə eyni təmkin, eyni vüqarla
Gəlib söykənirsən bir çinara sən.
Şairə xas olan bir iftixarla,
Deyirsən öz odlu nəğmələrindən.

Heykəl qoyulmayır hər bir ölənə,
Olsa da qondarma şöhrəti, adı...
Belə yer, belə bağ, belə gül-çiçək
Çoxuna, əlbəttə, nəsib olmadı.

Göylərə qaldırdın xalqın adını,
Sən onu dünyaya tanıtdın bütün.
Bizim elimiz də qədir biləndir;
Sənin heykəlini qaldırır bu gün.

Sərraf sədəf kəsir zər üzərində –
Onun əli usta, işi təmizdir.
İnsan əməyinin mahir sərrafı
Bizim partiyamız, dövlətimizdir.

Baxıb abidənə özün kənardan,
Mənalı gözlərin görürəm gülür.
Sözləri almazla yonubsa hər kim,
Onun da heykəli tuncdan tökülür.

Ekiz doğulmadın, bilirəm bunu,
Deyəcək sözüm var, bir məni dinlə:
Üz-üzə, göz-gözə dayanıbsınız,
Di buyur tanış ol, özün-özünlə!

Vurur fəvvarələr, çimir söyüdlər;
Kim qıyar çiçəklər saralsın, solsun.
Özün fəxrimizsən, qoy heykəlin də
Gözəl Bakımıza yaraşıq olsun!

"Köçdüm bu dünyadan" desən düz olmaz
Hər arzun yaşayır, əməlin durur.
Təkcə bu deyildir sənin abidən,
Milyon ürəklərdə heykəlin durur!

Günəşə nərdivan qoyan bu ölkəm,
Bu xalqım daha da boy atacaqdır,
Sənət abidəsi, – söz xəzinəni
Nəsildən-nəsilə yaşadacaqdır!

18 iyul, 1961

Bu dünya durduqca duracaqsınız

VƏTƏN EŞQİNƏ

Ay ellər, bir məni dinləyin barı,
Endirin dağlardan tez ilxıları!
Hanı göy qulanlar, kəhərlər hanı?
Hanı qantarğalar, yəhərlər hanı?

Düşmən ayaq basır doğma vətənə;
Tez tutun, hardadır göy səmənd atım!
Qoyun qollarımı çırmayıb yenə
Dəli ürgələrə bir kəmənd atım.

Durmayın, atları tez yəhərləyin!
Bizə müntəzirdir cəbhələr yəqin.
Çiynimdə bayrağım günəşdən uca,
Gedirəm, atlanın, sürün dalımca!

Kim deyir "şeirdən indi kar aşmaz"?
Kim deyir "şairə silah yaraşmaz"?
Bizim məskənimiz edilsə soraq,
Bilin cəbhələrdə gərmişik sinə.

Şərəfdir at minmək, qılınc bağlamaq
Azadlıq eşqinə, vətən eşqinə!..
Çiynimdə bayrağım günəşdən uca,
Gedirəm, atlanın, sürün dalımca!

İyun 1941

BU DÜNYA DURDUQCA DURACAQSINIZ

Sən, ey buludların bağrını yaran,
Tutqun üfüqlərdə qan tək qızaran,
Zülmətlər içində açılan səhər!

Sən, ey səngərləri sıçrayıb keçən,
Süngünün, qılıncın sıx meşəsindən
Düşmənin üstünə şığıyan kəhər!

Sən, ey səməndimin yarı, yoldaşı,
Döyüş meydanında sədəfli qaşı,
Sinəmin qanilə bəzənən yəhər!

Sən, ey başdan-başa alışıb yanan,
Yerbəyer məhv olan, təslim olmayan
Ağır bombalarla dağılan şəhər!

Sən, ey od içindən çıxıb müzəffər,
Volqa sahilindən Berlinə qədər,
Qırmızı bayrağı daşıyan əsgər!

Bu qızıl xətlərlə yazıram sizi,
Hərəniz tarixdən bir yarpaqsınız –
Bu dünya durduqca duracaqsınız!..

1945

ŞAİRİN HƏDİYYƏSİ

Bizim ev hazırlıq aparır bu gün,
Bir işlə məşğuldur ailə bütün.
Evin ortasında bir qutu durur,
Onun dövrəsində dolanır məğrur.
Alnında əzəmət, vüqar, ehtişam
Evin ağsaqqalı – mehriban babam.
Odur yığıb qoyan, səhərdən bəri
Cəbhəyə gedəcək hədiyyələri.